# Şəhid ailələri və qazilərə qayğı hər birimizin borcudur






***"Nəfəs" İnsanlığa Dəstək İctimai Birliyi eyni maraqlar uğrunda birləşmiş könüllülərin təşəbbüsü ilə yaradılan, ictimai əsaslarla fəaliyyət göstərən, fəaliyyət istiqamətini yardımlaşma prinsipləri əsasında həyata keçirən qeyri-kommersiya insanlıq hərəkatıdır. Birlik çıxdıqları yolda yüzlərlə insana və ailələrə maddi-mənəvi dəstək olub, onların arzularını reallaşdırmağa çalışıb. Məqsəd ölkəmizin sosial, ictimai və mədəni həyatında əhəmiyyətli işlər görərək dövlətə dəstək olmaqdır.***

İctimai birliyin sədri Firəngiz Balakişiyeva deyir ki, platformamız sosial problemlərin həlli istiqamətində xüsusi qayğıya ehtiyacı olanlara kömək etmək üçün yardımsevər insanları bir araya toplayıb: "Biz həmçinin, qloballaşan dünyamızda milli-mənəvi dəyərlərimizi qoruyub saxlamaq və mədəniyyətimizi geniş şəkildə təbliğ etmək istəyirik. İnsanlığa göstərdiyimiz xüsusi diqqətdən savayı, təbiətimizin və ətraf mühitin mühafizəsi kimi ekoloji sahələrdə də faydalı işlər görərək sağlam həyatı gündəlik yaşam tərzinə uyğunlaşdırmağa çalışırıq. Biz yaşanılan bütün sıxıntılara və çətinliklərə baxmayaraq, sevginin paylaşdıqca çoxaldığına, kədərin isə paylaşdıqca azaldığına inanırıq".

Qeyd edək ki, təşkilat ötən ilin noyabr ayında şəhid Yusif Budaqovun anası Lətafət xanımın kirayə yaşadığı evi ziyarət edib və problemlərini dinləyib. Həm həyat yoldaşını, həm də yeganə övladını Vətənə qurban verən Lətafət xanıma yardımsevər vətəndaş tərəfindən bağışlanmış mənzilin mebel və əşyalarla təminatını ictimai birlik həyata keçirib. Şəhid İbrahim Hüseynlinin oğlu Əlituranı isə artıq bir ildir ki, "Nəfəs" İctimai Birliyi himayəsinə götürüb. Həmçinin əslən Qusar rayonundan olan şəhidimiz Sənan Zamanovun Bakıda özəl məktəblərdən birinə qəbul olan övladının təhsil və kirayə mənzilin ödənişini həyata keçirib.

Bu sadaladıqlarımız birliyin gördüyü işlərin cüzi hissəsidir. Xatırladaq ki, "Nəfəs" İctimai Birliyi Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəhid ailələrinə, qazilərə, aztəminatlı ailələrə göstərdikləri diqqət və qayğıya uyğun olaraq, bu münasibətdə onların da bir az payı olmasını istəyərək bu yola çıxıblar. F.Balakişiyeva təkcə ötən il gördükləri işlərlə bağlı məlumat verərkən dedi:

– Həmişə şəhid ailələri və Vətən müharibəsi qazilərinin yanında olmaqdan şərəf və qürur duymuşam. Bizə başucalığı gətirən şəhidlərimizin əmanətlərini qorumaq hər bir vətəndaşın borcudur. Qeyd edim ki, birliyimiz tərəfindən ötən il 293 şəhid və qazi ailəsi ziyarət olunub, 47 qazinin müayinə və müalicə xərcləri qarşılanıb, həmçinin 8 qazinin əməliyyatı həyata keçirilib. Eyni zamanda, 53 şəhid və qazi ailəsinə birdəfəlik maddi dəstək göstərilib və 1 şəhid övladı birlik tərəfindən himayəyə götürülüb. Aztəminatlı ailələrdən olan 62 tələbənin təhsil xərcləri qarşılanıb və 113 ailənin sosial qayğılarına dəstək göstərilib. Biz yardımsevər insanları bir araya toplayaraq ölkəmizin sosial, ictimai və mədəni həyatında əhəmiyyətli işlər görmək, xüsusi qayğıya ehtiyacı olan insanlara, heyvanlara, təbiətə, bir sözlə, bütün canlı aləmə "nəfəs olmaq" və bu şəkildə öz dəstəyimizi göstərmək istəyirik. Təbiətə diqqət, heyvanlara sevgi, təhsilə dəstək, tibbi yardım, sosial qayğı kimi məsələlər bizim önəm verdiyimiz sahələrdir.

Mart ayında daha bir şəhidimizi və dəyərli ailə üzvlərini yaxından tanımaq şansı qazandıq. Tibb xidmətinin rəisi baş leytenant Şöhrət Qasımov Suqovuşan istiqamətində mühasirəyə alınmış yaralı əsgərlərimizi xilas edərkən qəhrəmancasına şəhid olub. Şəhidimizin ailəsi birliyimizə müraciət edərək, dövlət tərəfindən Sumqayıt şəhərində onlara bağışlanan mənzilin mebel və əşyalarla təmin olunmasına ehtiyac olduğunu bildirdi. Biz də mənzili yaşayış üçün lazım olan bütün mebel və avadanlıqlarla təmin etdik, şəhidimizin həyat yoldaşını övladları ilə birlikdə yeni mənzilinə köçürdük.



Qəhrəman Vətən oğullarının ailə üzvləri, övladları onların bizə buraxdıqları ən qiymətli əmanətdir. Həyatda olduğumuz müddətcə bu əmanətə sahib çıxmaq üçün çalışacağıq. Vətən sevgisi sözdə deməklə olmur, əməllə olur. Canını, qanını və həyatını Vətənin azadlığı uğrunda fəda edənlərin əməllərinə xoş əməllə cavab vermək hamımızın borcudur! Biz də öz növbəmizdə qəhrəman şəhid Şöhrət Qasımovun ailəsinin yeni mənzilini əşyalarla təmin etməklə, bu borcdan bir hissəsini azaltdıq.

Birliyin, paylaşmanın, xeyirxahlıq və şəfqətin simvolu olan Ramazan var olanı bölüşdükcə gözəlləşdiyini, məna qazandığını müsəlmanlara xatırladan müqəddəs aydır. Bu münasibətlə gözdən əlil dostlara sevgi və diqqət yönəldərək bayram sovqatları ilə Nərimanov rayonunda və Keşlə qəsəbəsində yaşayan gözdən əlil ailələri ziyarət etdik. Həmçinin 18 May Beynəlxalq Muzeylər Günü ilə əlaqədar "Niageriyada Azərbaycanın Dostları Təşkilatı"nın sədri Billura Bayramova Bernard ilə birgə Zirə Mədəniyyət Mərkəzi və Eko Parkında şəhid övladları üçün ekskursiya təşkil etdik. Uşaqlar burada yerləşən Xalçaçılıq tədris mərkəzi və Zirə xalça muzeyində nümayiş olunan qədim Azərbaycan xalçaları ilə tanış oldular, müxtəlif ekzotik gül və ağac kompozisiyalarından, rəngarəng orxideya növlərindən hazırlanmış Orxideya evini gəzdilər. Bir-birindən maraqlı rəsm əsərləri ilə zəngin art-studiyada və gimnastika zalında vaxt keçirdilər, mərkəzin həyətyanı ərazisində yerləşən oyun sahəsində əyləndilər.

Firəngiz Balakişiyeva görmə əngəlli vətəndaşlarımız üçün çox faydalı bir ilkə də imza atıb. Bu barədə özünü dinləyək:

– Əminəm ki, kitab oxuyanlarımız var. Oxuduğumuz kitabları bəzən lentə alaq ki, yalnız özümüz yox, ehtiyacı olan hər kəs faydalana bilsin. Bunun üçün kitabı səsli oxumaq, sadəcə telefonun yaddaşına yazib bizə göndərmək kifayətdir. Mənim ilk səsləndirdiyim kitab hər birimizin sevimlisi Əli və Nino oldu. Dinləyən hər kəsdən tənqidi yanaşmamağı, bunun bir qiraətçi və ya aktyor tərəfindən səsləndirilmədiyini,sadəcə həvəskar səsləndirmə olduğunu nəzərə almağı xahiş etdim. Artıq bir neçə kitabın gözdən əlillər üçün səsləndirilməsini həyata keçirmişik.

Sevinci paylaşmaq budur. Bir azərbaycanlı xanımın dövlət başçısının sosial siyasətinə dəstək məqsədilə gördüyü işlər alqışlanmalıdır. Qeyd edək ki, həm dövlət, həm qeyri-hökumət təşkilatları, həm də ayrı-ayrı xeyriyyəçi insanlar tərəfindən Azərbaycanda şəhid ailələri və qazilərə göstərilən diqqət və qayğı heç bir ölkədə yoxdur. Qazilər, həmçinin şəhid ailələri bütün ehtiyaclarının qarşılanması, problemlərinin həlli, sosial təminatının yaxşılaşdırılması baxımından tam qayğı ilə əhatə olunublar. Onlardan ehtiyacı olanlar son nəsil protezlərlə təmin olunub, bəziləri xarici ölkələrdə müalicə kursu keçib, Prezident təqaüdü, müxtəlif məbləğlərdə müavinət və pensiyalarla təmin olunublar. Firəngiz Balakişiyeva deyir ki, bu yolda dövlət başçısının yanındayıq və onun tapşırıqlarına əməl etmək hər bir vətəndaşın borcudur. Çünki bizi Ali Baş Komandanın rəhbərliyi ilə qalib xalq edən şəhidlərimiz və qazilərimiz, eləcə də hər bir əsgərimiz bu millətin övladlarıdır.

***Söhbətləşdi:***
***Zərifə BƏŞİRQIZI,***
***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2022.- 8 iyun.- S.4.